DÜNYA

# 'Reuters': Rusiya Qazaxıstandan benzin idxalı ilə bağlı danışıqlar aparır

indicə




Krımda yanacaqdoldurma məntəqələrində növbə.

Rusiya Qazaxıstanla 50 min ton AI-92 markalı benzinin idxalı barədə danışıqlar aparır. Bu barədə "Reuters" agentliyi öz mənbələrinə istinadən məlumat yayıb.

Agentliyin məlumatına görə, Rusiyada benzin istehsalı illik müqayisədə 25 faiz azalıb. Buna baxmayaraq, mənbələr tədarük həcminin yüksək olacağını ehtimal etmirlər. Qazaxıstanda benzin profisiti (artıqlığı) olsa da, iyun-iyul aylarındakı planlı təmir işləri ölkənin ehtiyatlarını azaldacaq. Belə ki, iyulun ortalarınadək Atırau Neft Emalı Zavodunda texniki işlərin aparılması planlaşdırılır.

Qazaxıstanın energetika naziri **Erlan Akkenjenov** Senatdakı çıxışında bildirib ki, Rusiyadan benzin tədarükü ilə bağlı heç bir rəsmi sorğu daxil olmayıb. Rusiya

Energetika Nazirliyi isə hələlik məsələyə münasibət bildirməyib.

Qazaxıstanda yanacaq istehsalının həcmi Rusiyadan xeyli az olduğu üçün ekspertlər bu tədarükün vəziyyəti köklü şəkildə dəyişəcəyinə şübhə ilə yanaşırlar.

Rusiya rəhbərliyi daxili bazarı sabitləşdirmək üçün yanacaq ixracının məhdudlaşdırılması, neft emalı zavodlarına subsidiyaların artırılması və idxalın təşkili kimi bir sıra tədbirləri nəzərdən keçirir.

Eyni zamanda daxili bazar üçün yanacağın keyfiyyət standartları yumşaldılıb və dəniz yolu ilə tədarük imkanları araşdırılır.

Qazaxıstan tərəfdən potensial tədarükçü kimi Rusiyanın "TANEKO" zavodunun xammalı ilə işləyən "Kondensat" şirkəti çıxış edə bilər.

Mənbələrdən birinə görə, sövdələşmə barter yolu ilə ola bilər. İyulda həm daxili tələbat artacaq, həm də Rusiya ixracı azalacaq ki, bu da Qazaxıstanda aviasiya yanacağı ehtiyatlarının azalmasına gətirib çıxaracaq. Buna görə də Astana benzini Rusiya aviayanacağı ilə dəyişməkdə maraqlıdır.

23 iyun

## Dron hücumları Rusiyanı yanacaq qıtlığına gətirdi: Regionlarda benzinə limit qoyulur

Ukrayna dronlarının neft emalı zavodlarına hücumları fonunda Rusiyada kəskin yanacaq qıtlığı yaranıb. Tədarükdəki fasilələr və ajiotaj səbəbindən Omsk, İrkutsk, Voronej, Saratov, Vladimir vilayətlərində və ilhaq edilmiş Krımda yanacaq satışına limitlər tətbiq olunur.

Omskda bir maşına maksimum 40 litr benzin verilir, Voronejdə isə "Lukoil" şəbəkəsində bu rəqəm cəmi 30 litrdir. Krımda isə Kerç boğazındakı logistika qovşağına endirilən zərbədən sonra benzin satışı tamamilə dayandırılıb.

Federal Antiinhisar Xidməti "möhtəkirliyin qarşısını almaq məqsədilə" onlayn platformalarda da yanacaq satışını qadağan edib.

"Reuters" agentliyinin məlumatına görə, **Rusiyada gündəlik benzin istehsalı ötən ilin iyunu ilə müqayisədə 25 faiz azalıb.** Yay mövsümündə daxili tələbatın minimum həddi sutkada 110 min ton olduğu halda, istehsal 90 min tona düşüb. Qubernatorlar regionlarda yanacaq bölgüsünün "əl ilə idarə" rejiminə keçdiyini deyirlər.

## Buna da bax:

Macarıstan Aİ bəyannaməsindən Ukraynanın sürətli qəbulu bəndini sildirib

G7 liderləri Rusiyaya qarşı sanksiyaları gücləndirməyi vəd edirlər

Avropa İttifaqı Kreml ilə qeyri-rəsmi təmaslara başlayıb – 'Reuters'

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur